**GƏLƏCƏK UĞURLU İŞ HƏYATI ÜÇÜN MƏLUMAT ƏSASLI KARYERA PLANLAŞDIRILMASININ VACİBLİYİ HAQQINDA VİDEOÇARXLARIN HAZIRLANMASI**

# MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

## (MƏSLƏHƏTÇİ XİDMƏTLƏRİ – MƏSLƏHƏTÇİ TƏŞKİLAT SEÇİMİ)

***Azərbaycan Respublikası Təhsil Nazirliyi***

***Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə***

***Kredit Nö.: 4394AZ***

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (bundan sonra TSİİL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

**Xidmətlərin məqsədi:** Gələcək uğurlu iş həyatı üçün məlumat əsaslı karyera planlaşdırılmasının vacibliyi haqqında 8 videoçarxın hazırlanması

**Xidmətlərin icra müddəti:** 5 ay

Azərbaycan Respublikasının Təhsil Nazirliyi qeyd olunan tapşırığın həyata keçirilməsində iştirak etmək istəyən məsləhətçi şirkətləri xidmətlərin göstərilməsinə maraqlarını ifadə etməyə dəvət edir. Xidmətlərə maraq göstərən məsləhətçi şirkətlər müvafiq ixtisas tələblərinə və təcrübəyə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri təqdim etməlidirlər:

· müraciət məktubu;

· yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;

· əsas heyət haqqında məlumat;

· nizamnamə.

**Məsləhətçi şirkətlərin ixtisas uyğunluğunu və təcrübəsini qiymətləndirmək üçün meyarlar:**

· Media məhsulların çəkilişi sahəsində ən azı 2 illik təcrübə;

· Analoji işlərin görülməsi üçün ixtisaslı daimi işçi heyətə malik olması;

· Çəkiliş və montaj üçün maddi texniki baza.

Məsləhətçi şirkətlər ixtisas uyğunluğunu gücləndirmək məqsədilə digər şirkətlərlə birgə müəssisə və yaxud sub-məsləhətçi formasında assosiasiya yarada bilərlər.

Məsləhətçi şirkətlərin seçimi Dünya Bankının “Borcalanlar tərəfindən Məsləhətçilərin Seçimi və İşə Götürülməsi Qaydaları”nda (2004-cü ilin may ayında nəşr edilmiş, 2006-cı ilin oktyabr ayında düzəliş edilmiş Qaydalar) əks olunan *Məsləhətçinin Keyfiyyət Göstəriciləri üzrə Seçim* metodu ilə aparılacaqdır. Xidmətlərə maraq göstərən məsləhətçi şirkətlərdən xahiş olunur ki, qeyd olunan Qaydaların *1.9 paraqrafına (Maraqların Ziddiyyəti) diqqət yetirsinlər.*

Maraqların İfadəsi yazılı şəkildə **05 fevral 2015-ci il** tarixinədək aşağıdakı ünvana təqdim edilməlidir:


Layihənin Əlaqələndirmə Qrupu,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

AZ1025, Bakı şəhəri, Nobel prospekti, 15.

Əlaqələndirici şəxs: Yeganə Manafova

Əlaqə telefonları: (+99 412) 488 66 47/48; faks: (+99 412) 488 66 49.

Email: y.manafova@edu.gov.az


Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək eyni ünvandan əldə etmək olar.